# 2015-ci ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikasında həyata keçirilən aqrar islahatlar nəticəsində kənd təsərrüfatının dinamik inkişafı üçün zəmin yaradılmışdır. Aqrar sektorda əsaslı dəyişikliklər baş vermiş, yeni iqtisadi və mülkiyyət münasibətləri formalaşmış, normativ hüquqi baza təkmilləşdirilmişdir. İdarəetmədə səmərəliliyin və şəffaflığın artırılması üçün elektron kənd təsərrüfatı sistemi tətbiq edilməkdədir.

Kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi, yeni çağırışlara uyğun sahə üzrə strateji hədəflərin və institusional dəyişikliklərin müəyyən edilməsi sahənin keyfiyyətcə yeni mərhələyə keçməsinin təməlini qoymuşdur. Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi, aqrar sahədə ixrac potensialının artırılması məqsədi ilə ölkədə müasir aqroparklar və iri fermer təsərrüfatları təşkil edilir. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində bölgələrdə müasir infrastruktur qurulmuş, kəndlərarası avtomobil yollarının şəbəkəsi genişləndirilmişdir.

Şəmkirçay və Taxtakörpü su anbarlarının istismara verilməsi suvarılan yeni torpaq sahələrinin əkin dövriyyəsinə cəlb edilməsinə və torpaqların münbitliyinin qorunmasına şərait yaradır.

Dövlət fermerlər üçün bir sıra güzəştlər müəyyən etmişdir. Belə ki, kənd təsərrüfatı məhsulları istehsalçıları, torpaq vergisi istisna olmaqla, vergilərdən azad edilmişlər. Fermer və sahibkarlar güzəştli şərtlərlə kredit, toxum, "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən lizinqə verilən və lizinq yolu ilə satılan gübrə, texnika, damazlıq mal-qara almaq imkanlarına malikdirlər. Eyni zamanda, əkin sahəsinin becərilməsində istifadə olunan yanacaq üçün dövlət subsidiyalar verir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, kənd təsərrüfatının inkişafına yeni təkan vermək və onun modernləşdirilməsini sürətləndirmək, aqrar sektorda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmək, bu sahəyə dövlətin inzibati və maliyyə resurslarını səmərəli şəkildə cəlb etmək, ölkəmizin aqrar potensialını geniş təbliğ etmək məqsədi ilə **qərara alıram:**

1. 2015-ci il Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilsin.

2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə birlikdə 2015-ci ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

*Bakı şəhəri, 12 yanvar 2015-ci il.*

# İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2015-ci ildə qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**(Əvvəli 1-ci səhifədə).**

Ötən ilin əlamətdar hadisələrindən biri də ikinci peykimizin orbitə buraxılmasıdır. Artıq Azərbaycanın iki peyki vardır. Bu peyklər göstərir ki, Azərbaycanda kosmik sənaye sürətlə inkişaf edir. Ölkədə yeni texnologiyalara, İnnovasiya layihələrinə sərmayə qoyulur, bu layihələr həm də elmin inkişafına xidmət göstərir, idarəetmə məsələlərini təkmilləşdirir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışında yerlərdə «Asan xidmət» mərkəzlərinin inkişafından, bu mərkəzlərin cəmiyyət tərəfindən müsbət qarşılanmasından, ötən il ölkənin beynəlxalq əlaqələrinin artmasından danışmışdır. Cənab Prezident demişdir: «Biz keçən il beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq etmişik. Üzv olduğumuz bütün beynəlxalq təşkilatlarda Azərbaycan fəal iştirak edir, öz mövqeyini müdafiə edir və bu təşkilatların uğurlu fəaliyyətinə öz dəyərli töhfəsini verir». Bununla yanaşı cənab Prezident qeyd etmişdir ki, bu gün beynəlxalq aləmdə böyük nüfuza sahib olan Azərbaycanı ləkələmək, qaralamaq, ona şər-böhtan atmaq cəhdləri də var. Bu cəhdlər əbəsdir. Bunların heç bir təsiri yoxdur, bizim siyasətimizə heç bir təsir edə bilməz.

Ermənistan—Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı cənab Prezident çıxışında xeyli açıqlamalara yer vermişdir. Əfsuslar olsun, keçən il də bu istiqamətdə heç bir irəliləyiş olmamışdır. Cənab Prezident bu məsələ ilə əlaqədar çıxışında mövcud vəziyyəti geniş təhlil etmiş, münaqişənin həlli istiqamətində ikili standartların yolverilməz olduğunu söyləmişdir. Cənab Prezidentin çıxışında qeyd olunmuşdur ki, Ermənistan keçən ilin yay aylarında və ilin sonunda bir neçə dəfə açıq təxribatlara əl atmışdır. Hər dəfə Azərbaycan Ordusu Ermənistan təxribatçılarına layiqli cavab vermişdir. Bununla da düşmənə və düşmənin havadarlarına göstərildi ki, ölkəmiz hansı gücə, hansı qüdrətə malikdir. Azərbaycan Ordusu istənilən vaxtda ərazi bütövlüyünü bərpa edə bilər. Döyüş meydanında ermənilərə elə dərs verildi ki, indiyədək özlərinə gələ bilmirlər. İndi Azərbaycanı beynəlxalq tədbirlərdə ittiham etməyə çalışanlar da tapılır. Vasitəçilər isə nədənsə bu ciddi məsələyə göz yummaqda davam edirlər. Lakin cənab Prezidentimiz başda olmaqla Azərbaycan yenə də prinsipial mövqedədir və bu prinsiplər mövqelərimizi daha da gücləndirir.

Cənab Prezident çıxışının sonunda tam əmin olduğunu bildirmişdir ki, biz 2015-ci ili də uğurla başa vuracağıq və ölkəmizin inkişafını təmin edəcəyik.

İclasda iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev, Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov, Mərkəzi Bankın sədri Elman Rüstəmov çıxış edərək 2014-cü ildə görülən işlərdən və qarşıda duran vəzifələrdən danışmışlar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasın axırında yekun nitqi söyləmişdir. Prezidentin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasının materialları mərkəzi mətbuatın səhifələrində dərc olunmuşdur.

**Nadir ATAKİŞİYEV.**

# Doğma ölkəmizdə

### Sənayenin inkişaf addımları

Müstəqil Azərbaycan Respublikası əvvəlki illərdə olduğu kimi 2014-cü ildə də sosial-iqtisadi sahədə bir sıra uğurlara nail olmuşdur. Bu, o deməkdir ki, ölkəmiz 2015-ci ilə yüksək potensialla qədəm qoymuşdur.

Ötən ilin ən əlamətdar cəhətlərindən biri bu idi ki, respublikamız ümumilikdə tarixə "Sənaye ili" kimi qədəm qoymuşdur. Sənaye bu gün əksər ölkələrdə iqtisadi siyasətin başlıca istiqamətlərindəndir. Hazırda dünyada işçi qüvvəsinin dörddə biri sənaye sahələrində cəmləşmişdir. Dünyanın inkişaf etməkdə olan ölkələrinin sənaye istehsalında payı 2000-ci illə müqayisədə 2 dəfə artaraq 40 faizə çatmışdır.

Son 10 ildə isə Azərbaycanda sənaye istehsalı 2,7 dəfə, o cümlədən tikinti məmulatlarının istehsalı 2,5 dəfə, elektrik avadanlıqlarının istehsalı 2,1 dəfə, metallurgiya sənayesi 2,2, geyim istehsalı 2,5 dəfə artmışdır.

2014-cü ildə ölkədə 230-dan çox sənaye müəssisəsi açılmışdır. Dövlətin güzəştli kredit dəstəyi ilə özəl sektor tərəfindən 30-dan çox sənaye müəssisəsi qurulmaqda və genişləndirilməkdədir.

### Ötən ilin 11 ayında ümumi daxili məhsul istehsalı 2,2 faiz artmışdır

Keçən ilin 11 ayı ərzində 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə ümumi daxili məhsul istehsalı 2,2 faiz artaraq 53,7 milyard manata çatmış, əhalinin hər nəfərinə 5710,7 manatlıq əlavə dəyər istehsal olunmuşdur. Ümumi daxili məhsul istehsalında qeyri-neft sektorunda 6,5 faiz artım qeydə alınmış, iqtisadi və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 14,7 milyard manat həcmində vəsait qoyulmuşdur.

### Bütün sahələr üzrə orta aylıq əməkhaqqı artıb

Ötən ilin yanvar-oktyabr aylarında ölkənin sənaye sahələrində çalışan muzdlu işçilərin sayı əvvəlki illə müqayisədə artaraq 183,3 min nəfərə çatıb. Onların orta aylıq əməkhaqqı isə 10,1 faiz artaraq 710 manat təşkil etmişdir. İnşaat bölməsində çalışan işçilərin sayı isə 99,2 min nəfər olub, orta aylıq əmək haqqı isə 2013-cü ilə nisbətən 0,5 faiz artaraq 626,1 manata çatmışdır.

İqtisadi sektorda ümumi vəziyyətə gəldikdə isə ötən ilin 10 ayında bu sahədə muzdla çalışan işçilərin orta aylıq əmək haqqı 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 5,5 faiz artaraq 441,8 manat təşkil edib. Qeyd edək ki, həmin dövr əməkhaqqı neft sektorunda 1756,5, özəl bölmədə 567,3 manat olmuşdur.

Ötən ilin noyabr ayının 1-nə əhalinin banklardakı əmanətlərinin həcminə gəldikdə isə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 11,1 faiz artaraq 7 milyard manata çatıb. Əmanətlərin 63,4 faizi milli valyuta ilə qoyulub. Bu da 2013-cü ilə nisbətən 14,8 faiz çoxdur. Həmin göstərici ölkədə manatın sabitliyi ilə əlaqədardır.

### Ölkədə işsizliyin səviyyəsi aşağı düşür

Respublikada aparılan iqtisadi islahatlar nəticəsində işsizliyin səviyyəsi ildən-ilə azalır. Ötən il dekabrın 1-i vəziyyətinə məşğulluq xidməti orqanları tərəfindən ölkə üzrə rəsmi işsiz statusu verilən şəxslərin sayı cəmi 28,9 min nəfər olub. Bu da 9,6 milyondan çox əhalisi olan ölkə üçün kiçik bir göstəricidir.

### "Eurovision-2015" mahnı müsabiqəsində Azərbaycan da iştirak edəcək

Avstriyanın Vyana şəhərində keçiriləcək "Eurovision-2015" mahnı müsabiqəsində 39 ölkə təmsil olunacaq. Bu 60-cı müsabiqə təmsilçiləri arasında Azərbaycan da vardır.

Püşkatma mərasimi yanvar ayının 26-da keçiriləcəkdir.

Yarışmanın I və II yarımfinalı müvafiq olaraq may ayının 19-da və 21-də, final mərhələsi isə 23-də olacaqdır.

**Topladı: N. ATAKİŞİYEV.**